Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 90-91
(7139-7140) ✵ Cümə, 6 dekabr 2013-cü il ✵ Qəzet ayda 4 dəfə çıxır ✵ Qiyməti 40 qəpik

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Prezidenti İlham Əliyev Fransa Prezidenti Fransua Ollandla görüşmüşdür. Görüşdə Azərbaycan ilə Fransa arasında siyasi, iqtisadi, energetika və mədəniyyət sahələrində əməkdaşlığın qarşılıqlı inkişafı qeyd olunmuş və bu əməkdaşlığın Avropa İttifaqı çərçivəsində inkişafının əhəmiyyəti qeyd edilmişdir.

✵ ✵ ✵

Ölkə başçısı Vilnüs sammiti çərçivəsində İspaniya Krallığının baş naziri Mariano Raohu Beru və Estoniya Respublikasının baş naziri Andrus Ansip ilə də görüşləri olmuşdur. Görüşlərdə hər iki tərəf qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışdır.

✵ ✵ ✵

Azərbaycan Respublikasının Prezidenti Rumıniyanın Prezidenti zati-aliləri cənab Trayan Beseskuya, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Xəlifə bin Zayed Al Nəhyana, Vitse-prezidenti və Baş naziri, Dubay əmiri Əlahəzrət şeyx Məhəmməd bin Rəşid Al Şeyx Məktuma, Laos Xalq Demokratik Respublikasının Prezidenti Zati-aliləri cənab Çoummali Sayasoneyə həmin ölkələrin milli bayramları münasibətilə təbrik məktubları göndərmişdir.

✵ ✵ ✵

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 2-də Azərbaycan xalçası və Xalq tətbiqi sənəti Dövlət Muzeyinin yeni binasında sərgilərin tərtibatının təşkili ilə tanış olmuşdur.

✵ ✵ ✵

Dekabrın 2-də İlham Əliyev Bakıda keçirilən UNESCO-nun Qeyri-maddi mədəni irsinin qorunması üzrə Hökumətlərarası Komitəsinin VIII sessiyasının öz işinə başlaması münasibətilə sessiya iştirakçılarına təbrik məktubu göndərmişdir.

✵ ✵ ✵

Bakıda "Baku Tel-2013" XIX Azərbaycan Beynəlxalq telekommunikasiya və İnformasiya texnalogiyaları sərgisi açılmışdır. Azərbaycan Prezidenti İlham Əliyev sərgi ilə tanış olmuşdur.

✵ ✵ ✵

Prezident İlham Əliyev «Baku Tel-2013» 19-cu Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi və konfransının iştirakçılarına təbrik məktubu ünvanlamışdır.

✵ ✵ ✵

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq Elman Lütvü oğlu Mehdiyevin Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun sədri təyin edilməsi ilə əlaqədar Sərəncam imzalamışdır.

# Avropa strukturlarına inteqrasiya sürətlənir

Noyabrın 29-da Litva Respublikasının paytaxtı Vilnüs şəhərində Avropa İttifaqının III "Şərq tərəfdaşlığı" sammiti keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə iştirak etmişdir. Xatırladaq ki, "Şərq tərəfdaşlığı" sammiti ilk dəfə 2009-cu ilin mayında Çexiyanın paytaxtı Praqada, ikincisi isə 2011-ci ilin sentyabrında Polşa Respublikasının paytaxtı Varşavada keçirilmişdir.



Azərbaycan da daxil olmaqla, altı ölkəni əhatə edən "Şərq tərəfdaşlığı" MDB-yə daxil olan dövlətlərlə Avropa İttifaqı arasında münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş təşəbbüsdür.

Sammit çərçivəsində mühüm görüşlərin keçirilməsi və imzalanan sənədlər ölkəmizin Avropa ölkələri ilə perspektiv əməkdaşlığının fundamental əsaslar üzərində qurulduğunu bir daha sübuta yetirdi. Vilnüsdə ölkəmizin başçısı Fransa Respublikasının Prezidenti Fransua Ollandla, İspaniya Krallığının Baş naziri Mariana Rahoy Breylə, Estoniya Respublikasının prezidenti Andrus Ansip ilə və digər görkəmli dövlət rəsmiləri və siyasətçilərlə mühüm görüşlər keçirdi.

Sammit çərçivəsində ən yaddaqalan hadisələrdən biri Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında viza rejiminin sadələşdirilməsi haqqında sazişin imzalanması oldu. Sazişi Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Avropa İttifaqı tərəfindən isə Litvanın xarici işlər naziri Linos Linkyovıçyus və təşkilatın genişlənmə və Avropa qonşuluq siyasəti üzrə komissarı Stefan Fule imzaladılar. Saziş Şenqen vizası almaq üçün tələb olunan 60 avronun 30 avroya endirilməsini, vizanın verilməsi üçün tələb olunan günlərin və sənədlərin sayının azaldılmasını nəzərdə tutur. Sazişə əsasən Azərbaycan vətəndaşlarının, xüsusilə çox səyahət edənlərin qısamüddətli viza əldə etmələri daha asan və ucuz başa gələcək. Çox səyahət edən müəyyən vətəndaşlara müvafiq şərtlər daxilində 1 ildən 5 ilədək çoxgirişli viza veriləcək. Sazişə əsasən viza üçün müraciət edən müəyyən kateqoriyalı vətəndaşlar, o cümlədən rəsmi nümayəndə heyətinin üzvləri, 12 yaşdan kiçik uşaqlar, təqaüdçülər, tədqiqatçılar, tələbələr viza haqqının ödənilməsindən azaddırlar.

Azərbaycan Avropa İttifaqının "Şərq tərəfdaşlığı" təşəbbüsünü dəstəkləyərək bu proqramda yaxından iştirak edir. "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində yaradılan Parlament Assambleyası ilə Azərbaycan Respublikasının Milli Məclisi arasında əməkdaşlıq əlaqələri də uğurla inkişaf etməkdədir. Bakıda Avropa Parlament Assambleyasının ikinci sessiyasının keçirilməsi də deyilənlərə əyani sübutdur.

Vilnüsdə keçirilən III "Şərq tərəfdaşlığı" sammiti, ölkəmizin başçısının bu sammitdə iştirakı və imzalanan sənədlər deməyə əsas verir ki, Azərbaycan Respublikasının Avropaya inteqrasiyası siyasəti uğurla, ardıcıl olaraq ölkəmizin, xalqımızın mənafelərinin nəzərə alınması ilə həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev başda olmaqla Azərbaycan hökuməti ötən 10 ildə beynəlxalq hüquq prinsiplərindən çıxış edərək, praqmatizmə, qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan açıq xarici siyasət yeritmiş, ikitərəfli və çoxtərəfli əməkdaşlığa üstünlük vermişdir. Məhz bu reallıqlar fonunda respublikamızın Avropa üçün geosiyasi və iqtisadi əhəmiyyəti daha da yüksəlmiş, avrostrukturlara inteqrasiya prosesi sürətlənmişdir.

**Qüdrət SƏMƏDOV.**

## Azərbaycan Respublikası Milli Məclisində

Dekabrın 3-də Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbəti iclası keçirilmişdir.

Bu iclasda «Hərbi qulluqçuların dövlət icbari sığortası haqqında», «Təhsil haqqında», «15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşlarının fərdi identifikasiya kartı haqqında», «Akkreditasiya haqqında» Azərbaycan Respublikası Qanunlarında, Azərbaycan Respublikasının Cinayət və Cinayət Prossessual, İnzibati xətalar və Vergi məcəllələrində dəyişikliklər haqqında qanun layihələri müzakirə olunaraq qəbul edilmişdir.